Səh. 2 Gələcəyə qənim kəsilənlər – Azər Musaoğlu
Səh. 4 Müəllimlər üçün tibbi sığorta paketi dəyişibmi?
Səh. 5 Qeybət etmirik, söhbət edirik... – Alina Fətullayeva
Səh. 6 Türkdilli xalqların əxlaqi-estetik aləmi – Elizbar Cavelidze
Səh. 3 Bərəkət – Esmira Ələkbərli
Səh. 4 Aparıcı və mentor statusu imtahanlarının materiallarında və vaxtında dəyişiklik edilib
Səh. 7 Niderland – pərdə arxasındakı gerçəklər – Afiq Muxtaroğlu

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2023-Cİ İL
№ 002 (173)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ARÇİL TALAKVADZE: 20 YANVAR AZƏRBAYCANIN MÜSTƏQİLLİYİ UĞRUNDA MÜBARİZƏNİN RƏMZİDİR



Gürcüstan parlamentinin sədr müavini Arçil Talakvadze 20 Yanvar faciəsi ilə bağlı tviter hesabında paylaşım edib. O, 20 Yanvar tarixini Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsinin rəmzi adlandırıb.

A.Talakvadze yazıb: *“Bu gün biz Azərbaycan xalqı və hökuməti ilə birlikdə Qara Yanvar faciəsi qurbanlarının xatirəsini anırıq. Biz şəhid və yaralananların xatirəsini ehtiramla yad edirik. 1990-cı ilin 20 yanvarı Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin rəmzidir”.*

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRLİYİ AZƏRBAYCANIN İRANDAKI SƏFİRLİYİNƏ HÜCUMU PİSLƏYİB



“Azərbaycanın İrandakı səfirliyinə hücumu qətiyyətlə pisləyirik”. Bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyindən bildirilib.

*“Hər hansı diplomatik nümayəndəliyə qarşı hər hansı zorakılıq hərəkəti tamamilə qəbuledilməzdir. Faciə qurbanının ailəsinə başsağlığı veririk”,* – məlumatda vurğulanıb.

Xatırladaq ki, yanvarın 27-də Tbilisi vaxtı ilə səhər saat 8:30 radələrində Azərbaycanın İrandakı səfirliyinə terror hücumu olub. Terroru törədən şəxs “Kalaşnikov” markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisi Orxan Əsgərovu qətlə yetirib. Səfirliyin iki nəfər mühafizə əməkdaşı da hücumun qarşısını alarkən yaralanıblar. Terroru törətmiş şəxs Azərbaycan səfirliyinin əməkdaşı tərəfindən saxlanılıb.

## VAHİD MİLLİ HƏRƏKAT PARTİYASINA YENİ SƏDR SEÇİLİB




Müxalif Vahid Milli Hərəkat Partiyasının yeni sədri **Levan Xabeişvili** seçilib. O, elektron səsvermədə iştirak edən seçicilərin 52,58 %-nin səsini qazanıb.

“Seçkilər üçün 49 638 nəfər seçici qeydiyyatdan keçib. Onlardan 41 264 nəfəri seçkilərdə iştirak edib. Seçki subyektləri üzrə səslərin sayı bu cürdür: Giorgi Mumladze 1 516 səs (3,68 %), Nona Mamulaşvili 1 537 səs (3,73 %), Nika Melia 16 476 səs (40 %), Levan Xabeişvili 21 656 (52,58 %) səs toplayıb”, – deyə partiyanın siyasi şurasının sədri Koba Naqopia bildirib.

Qeyd edək ki, səsvermə proseduru yanvarın 28-də başlayıb və yanvarın 30-u səhər saat 10:00-da başa çatıb.

## HÖKUMƏT DİNİ İCMALARA 5,5 MİLYON LARİ AYIRIB

Gürcüstan hökuməti cari ildə ölkədəki dini icmalara yardım məqsədilə 5,5 milyon lari vəsait ayırıb. Vəsait 2023-cü ilin dövlət büdcəsindən ödəniləcək. Bu barədə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi məlumat yayıb.

Məlumata əsasən, vəsaitin **3,5 milyonu ölkənin müsəlman icmasına veriləcək.** Qalan vəsait Gürcüstanın Yəhudi İcması (500 min), Erməni apostol kilsəsi (1 milyon lari) və Roma Katolik Xristian İcması (650 000 lari) arasında bölüşdürüləcək.

რელიგიის საკითხთა სახელმწიფო სააგენტო

Qeyd edək ki, hökumət 2022-ci ildə də mərhələli şəkildə dini icmalara yardım etmişdi. Hökumət əvvəlcə dini icmala 4,5 milyon lari ayırmışdı. Sonradan hökumət başçısının ehtiyat fondundan daha 1 milyon lari əlavə edilmişdi.

Xatırladaq ki, Gürcüstan əhalisinin 11 faizə yaxınını müsəlmanlar təşkil edir.



# GƏLƏCƏYƏ QƏNİM KƏSİLƏNLƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Görəsən bu yaşlı nəsil gənclərə nə verib ala bilmir? Niyə qırışlı, artritli əllərinə fürsət düşən kimi gəncləri pisləyir, gözümçıxdıya salır, quyusunu qazır, donosunu yazır? Niyə sevinə bilmirlər gənclərin uğurlarına, niyə çürüyüb yıxılmış kötük olurlar gənclərin cığırlarına? Niyə qorxurlar gənclərdən, gənclikdən, istedadlılardan, istedaddan? Qarınlarına nə azar dolub ki, harada bir uğurlu gənc görsələr sancıları başlayır, bilmirsən yaşdandı, yeməkdəndi, yoxsa paxıllıqdan... Ən çirkin mənzərəni də səhərdən-axşama feysbukda yaşıl işığı yanan qocalar yaradır. Elə bil boyunlarına öhdəlik götürüblər ki, kompüter arxasında oturub feysbukda gəncləri güdsünlər, hər paylaşımlarına bir qoca mız qoysunlar, qaralasınlar, "səhv" tutsunlar, qüsur kəşf eləsinlər, "neprav" çıxarsınlar, heç kəsi, heç nəyi bəyənməsinlər...

Bu "veçni nedavolni" qocalar gənclərin heç bir tədbirində iştirak etməzlər, gənclərlə bağlı görüşlərə getməzlər, gənclərin uğurlu paylaşımlarına "layk" qoymazlar, nə qədər mükafat, tərifnamə, qonorar alsalar yenə də doymazlar; eynəyin altından bərəlmiş gözləri gənclərə verilən mükafatlarda, uğurlarda, qonorarlarda, vəzifələrdə olar həmişə, pərçimlənərlər işə – imkan verməzlər gənclər də işləsin; bütün həyatı boyu – xəstələndikdə və sağlıqda, yaxşı gündə və pis gündə, cavanlıqda və qocalıqda, ölüm ayırana qədər vəzifədən nikahlı ər-arvad kimi ayrılmazlar. Bacarıqlı, istedadlı, savadlı gəncləri özlərinə potensial rəqib-düşmən görərlər; bacarıqlı, istedadlı, savadlı gəncləri ömür çürütdükləri idarənin, təşkilatın, qurumun həndəvərinə buraxmamaq üçün gecə-gündüz plan qurarlar, qarayaxma kampaniyasına başlayarlar, "yuxarılara" zəng vurarlar...

Sən demə, gənclərin yazılarını qəzetdə, saytda verməklə sözə hörmət qoymayaraq qeyri-peşəkarlıq edirikmiş. Bilməmişik, bu qocalardan icazə alıb gənclərin yazılarını elə yayımlamalıyıqmış. Sən öl, elə bil Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi-zaddı... Allah uzaq eləsin, gör başımıza nə oyunlar açarlarmış bu bolşeviklər...

Gənclərin yazıları zəif, qüsurlu, qeyri-peşəkar ola bilər, səhf fikirlər səsləndirə bilərlər, amma gəncləri bəyənməyən bu qocalardan fərqli olaraq onların yazılarında yalan, kiməsə yarınmaq, kimisə nəyə görəsə tərifləmək, sağlıq demək, şəninə şeirlər həsr eləmək, yubiley keçirmək, başsağlığı vermək, vəzifədən, rütbədən, medaldan qorxmaq və bu kimi qüsurlar yoxdur.

Gənclərin yazıları gənc qəlblərinin çırpıntılarından əmələ gələrək demək istədikləri sözlərdən, narahat olduqları problemlərdən ibarətdir; dünyanı necə görmək istədiklərini, həyatlarını, ətraflarını necə təsəvvür etdiklərini qorxmadan, çəkinmədən fikirləşdikləri kimi də yazırlar. Gənclərin bu yaşlılardan fəqli olaraq kiminsə xoşuna gəlmək, çap olunmaq kimi dərdləri də yoxdur, bütün sosial şəbəkələr onların üzünə açıqdır.

Yaşlı nəslin gənclərin sözlərini yazılı demələrinə qarşı bu cür qısqanc münasibətini necə başa düşmək olar? Bu ədavət nə zamana kimi davam edəcək axı?..

Axı heç kəs anasının qarnında öyrənməyib. 11-ci, 12-ci sinif şagirdindən 50 illik təcrübəsi olan bir publisistin yazacağı yazını gözləmək özü anormallıqdır. Kadr yetişmir deyirsiniz. Siz gələcəyə bu cür qənim kəsiləndə kadrmı yetişər?..

Qorxmayın, bu gen dünyada yer hamıya çatacaq, yerinizi gənclər dar eləməsin. Özünü ifadə etmək üsulunu dəyişmək zamanıdır artıq. Tükənməkdə olan (bəzilərində isə artıq tükənmiş) enerjinizi gəncləri qaralamaq, pisləmək, gözümçıxdıya salmaq, şərləmək, paxıllamaq, ruhdan, həvəsdən salmaq əvəzinə faydalı işlərlə məşğul olsanız, məsələn, ağac əksəniz, toyuq-cücə saxlasanız, nəvələrinizi parkda gəzdirsəniz, xəsisliklə rəflərdə kitab qurdlarına yedizdirdiyiniz kitablardan oxumaq üçün gənclərə versəniz daha faydalı olarsınız...

Mənim sözümü saymaya bilərsiniz, ona görə də fikrimi qoca Volterin sözləri ilə tamamlayıram, hər halda yaşlılara xitab edib: "İmkan verin gənclər dünyanı düşündükləri kimi görsünlər, onsuz da böyüdükcə olduğu kimi görəcəklər".

## SALOME ZURABİŞVİLİ: "RUSİYA İLƏ HAVA ƏLAQƏLƏRİNİN AÇILMASINA QARŞIYAM"



"Rusiya ilə hava əlaqələrinin açılmasına qarşıyam". Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili deyib.

O bildirib ki, bütün tərəfdaş ölkələrin Ukraynanın fədakar mübarizəsini bu və ya digər formada dəstəklədikləri vaxtda belə bir addım anlaşılan olmaz.

Zurabişvili həmçinin hökuməti Rusiya vətəndaşlarının ölkə ərazisinə gəlişinə əlavə məhdudiyyətlər qoymağa çağırıb.

Qeyd edək ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiya ilə Gürcüstan arasında birbaşa aviareyslərin tezliklə bərpa olunacağına ümid etdiyini bildirib.

"Mən şadam ki, insanlarımızla Gürcüstan arasında əlaqələr fəal şəkildə inkişaf edir. Ötən il Gürcüstanın ÜDM-i 10 faiz artıb ki, bu da, əsasən turizm və Rusiya Federasiyası ilə münasibətlər hesabına baş verib", - deyə XİN başçısı vurğulayıb.

## GÜRCÜSTAN QARA DƏNİZ SUALTI ELEKTRİK KABELİNİN ÇƏKİLİŞİNİN BİRİNCİ MƏRHƏLƏSİNİ BU İL YEKUNLAŞDIRMAQ NİYYƏTİNDƏDİR



Gürcüstan hökuməti Cənubi Qafqaz regionu ilə Cənub-Şərqi Avropanı birləşdirəcək Qara dəniz sualtı elektrik kabelinin çəkilişi ilə bağlı tarixi layihənin birinci mərhələsinin texniki-iqtisadi təhlili və geoloji kəşfiyyatını 2023-cü ilin sonunadək başa çatdırmaq niyyətindədir.

Məsələ Baş nazir İrakli Qaribaşvilinin ölkənin İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin rəhbər işçiləri ilə görüşündə müzakirə olunub.

Bildirilib ki, Cənubi Qafqaz regionu ilə Cənub-Şərqi Avropanı birləşdirəcək Qara dəniz sualtı elektrik kabelinin çəkilişi ilə bağlı tarixi layihənin birinci mərhələsi 2023-cü ildə başa çatdırılmalıdır. Sualtı kabelin ümumi uzunluğu təxminən 1195 kilometrdir.

Baş nazir deyib ki, bu layihə Rumıniya ilə Gürcüstan arasında yüksəkkeyfiyyətli telekommunikasiyanı təmin edəcək. Layihə Avropa və Qafqaz regionunda enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, bərpa olunan enerji sektorunun inkişafına və tranzit imkanlarının artırılmasına töhfə verəcək.

Görüşdə iri enerji layihələri də müzakirə olunub. Ölkədə yeni elektrik stansiyalarının tikintisi və əlavə güclərin yaradılmasının vacibliyi vurğulanıb.

## GÜRCÜSTAN ÖTƏN İL TURİZMDƏN 3 MİLYARD 500 MİLYON DOLLAR GƏLİR ƏLDƏ EDİB



Milli Turizm Agentliyinin yaydığı məlumata əsasən, Gürcüstan 2022-ci ildə turizmdən 3 milyard 500 milyon dollar gəlir əldə edib.

Məlumatda bildirilir ki, 2022-ci ildə turizmdən əldə olunan gəlir COVID-19 pandemiyasınadək olan dövrün, yəni 2019-cu ilin turizm gəlirlərindən 363 milyon 306 min dollar və ya 182 faiz çoxdur.

Qeyd olunub ki, 2022-ci ildə ölkəyə ümumilikdə 5 milyon 426 min 903 ziyarətçi gəlib ki, onlardan da 3 milyon 652 min 949 nəfəri turist vizası ilə daxil olub.

Gəlirlərin artımı turizm mövsümü və Rusiyadan gələn miqrantların hesabına yaranıb.

Milli Bankın məlumatına əsasən, ruslar keçən il ərzində Gürcüstanda 891 milyon dollar xərcləyiblər.

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRLİYİNİN ƏMƏKDAŞLARI 20 YANVAR ŞƏHİDLƏRİNİN AİLƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞÜBLƏR




Azərbaycanın Gürcüstandakı səfirliyi 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Gürcüstandakı şəhid ailələri ilə görüşüb, onların qayğıları ilə maraqlanıblar.

Səfirlik əməkdaşları əvvəlcə Saqareco rayonunun Qaraçöp kəndinə baş çəkərək yerli ictimaiyyətin nümayəndələri ilə birgə Qaraçöp kəndində 20 Yanvar şəhidlərinin və 9 Aprel hadisəsi qurbanlarının xatirəsinə inşa edilən abidə kompleksinin önünə gül dəstələri qoyublar.

Sonra səfirliyin əməkdaşları 20 Yanvar şəhidi Ələsgər Yusif oğlu Qayıbovun ailəsinə baş çəkərək şəhidin xatirəsini ehtiramla yad ediblər.

Səfirliyin məsul əməkdaşları həmçinin Qardabani rayonunun Ağtəhlə kəndində olublar. Bildirilib ki, 20 Yanvar şəhidi Rəşid İsmayılov 1949-cu ilin avqustunda Ağtəhlədə anadan olub. Onun iki övladı var. Səfirliyin məsul əməkdaşları şəhidin yaxınlarına başsağlığı veriblər.

Marneuli rayonunun Kirəc-Muğanlı kəndində isə şəhid Vəfadar Eminovun xatirəsi anılıb.

Səfirliyin məsul əməkdaşları Bolnisi rayonunun Faxralı kəndində də şəhidlərin xatirəsini ehtiramla yad ediblər.

Faciə nəticəsində şəhid olmuş Faxralı kənd sakini İlqar Əhmədovun da xatirəsi anılıb, məzarı önünə gül dəstələri qoyulub.

Görüşlərdə Qanlı Yanvar faciəsinin səbəbləri və nəticələri barədə danışılıb, həlak olanlar arasında Gürcüstan azərbaycanlılarının da olduğu vurğulanıb. Azərbaycan və gürcü xalqlarının öz qəhrəmanlarını heç vaxt unutmayacaqları bildirilib.

Səfirlik əməkdaşları ailələrə Azərbaycan dövləti adından yardım çatdırıblar.

Xatırladaq ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun Azərbaycana qarşı hərbi əməliyyatları nəticəsində 147 nəfər öldürülür, 744 nəfər ağır yaralanır, 841 nəfər isə qanunsuz olaraq həbs edilir. Yanvarın 20-si şəhidlik zirvəsinə yüksələnlər arasında 6 nəfər Gürcüstan azərbaycanlısı da var:

1. Mursaqulov İsmayıl Həsən oğlu – Marneuli rayonu, Qızılhacılı kəndi;
2. İsmayılov Rəşid İslam oğlu – Qardabani rayonu ,Ağtəhlə kəndi;
3. Əhmədov İlqar Hümbət oğlu – Bolnisi rayonu, Faxralı kəndi;
4. Qayıbov Ələsgər Yusif oğlu – Saqareco rayonu, Yormuğanlı kəndi;
5. Eminov Vəfadar Osman oğlu – Marneuli rayonu, Kirəc-Muğanlı kəndi;
6. Turabov Tengiz Məmməd oğlu – Bolnisi rayonu, Kəpənəkçi kəndi.

## GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATININ ƏMƏKDAŞLARI "PARLAQ GƏLƏCƏK" KİTAV EVİNDƏ OLUBLAR



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) nəşriyyat şöbəsinin nümayəndələri Hacı Bəkiroğlu və Elsevər Əhmədov Saqareco rayonunun Yor Muğanlı kəndində yerli azərbaycanlı müəllimlər tərəfindən təsis edilmiş "Parlaq Gələcək" kitab evi və təhsil mərkəzini ziyarət edərək müəllimlərlə söhbət zamanı mərkəzin fəaliyyəti ilə yaxından tanış olublar.

GYMD əməkdaşları kitab evinə təşkilat tərəfindən nəşr olunmuş kitablar hədiyyə ediblər və bu uğurlu yolda onlara uğurlar diləyiblər.

## BƏRƏKƏT



ESMİRA ƏLƏKBƏRLİ

Bərəkətli olsun!

Yəqin bu ifadəni hamımız eşitmişik və dəfələrlə demişik – hikmətini fərqinə varmadan adi dua kimi... Sən demə, bu bərəkət arxasında necə böyük hikmət varmış.

Mən ailələr tanıyıram, evə neçə yerdən gəlir gəlir, amma maddi ehtiyac içindədilər. Ailələr tanıyıram ki, cüzi gəlirlə çox sıradan dolana bilir. Həə, bütün bunların fövqündə dayanan bir qüvvə nələr demir...

Eşitdiklərim, oxuduqlarım, gördüklərimin məntiqi nəticəsi olaraq anladım ki, bizdən asılı olmayan bir idarəedicilik olmazı olar, oları olmaz edirmiş. İstəyirəm düşündüklərimi həyatı təcrübələrlə əsaslandırım.

Yəqin hamımız bilirik ki, canavar itlərlə eyni fizioloji xüsusiyyətlərə malikdir. Canavar da it kimi küçükləyir: ildə 2-3 dəfə 6-8 bala verə bilər. Canavarın balası heç kimə lazım deyil, mənimsənilmir, ovlanmır. Çoxdan "Qırmızı kitab"a düşüb, heç qorunmaq üçün də ovlanmır. Bəli, "Qırmızı kitab"a düşüb, çünki nəsli kəsilmək üzrədir, özü də parçalayıcı, vəhşi təbiət nümayəndəsidir.

İndi gələk qoyuna. Hansı ki, ildə bir və ya iki dəfə bala verir, əksər halda tək, istisna hallarda ekiz. Biz şərqlilər sevirik yağlı ət yeməklərini, o cümlədən kababları. Bunu nədən hazırlayırıq – əksər hallarda qoyun, quzu ətlərindən. Hələ qurbanları, niyyətləri də nəzərə alsaq, görün hər gün nə qədər qoyun-quzu kəsilir. İldə bir, lap olsun iki bala verməklə bu qədər tələbat ödənirsə, bəs demək olar ki, çöldə, düzdə, meşədə, hətta kənd ətraflarında belə məskunlaşan, küçükləyən və mənimsənilməyən canavar niyə dünyanı tutmur, qoyun isə azlığıyla bu qədər tələbat ödəyir?..

Həə, bax, dediyim bərəkət buymuş. Sən demə, qoyunun özüylə birlikdə bərəkəti də doğulur, amma it-qurd bərəkətsiz doğulur.

Belə insanlar da var: bərəkətli qazancı var; adam da var yellə gəlir, sellə gedir. Mənim məntiqi nəticəm mənə dedi ki, bərəkət verilmir, alınır. Bəlkə deyək kökündə halallıq var. Hə, bu da var.

Nənələr belə söyləyirdilər ki, bir gün zərgərlə arvadının mübahisəsi düşür. Kişi deyi ki, bütün bu qazancı mən qazanıram. Arvad isə deyir: Burada mənim də əməyin var. Kişi hirslənir: Sən evdə oturub neyləyirsən ki?.. Qadın sözünü kəsir və sabahdan adət tərbiyəsinə əks olaraq süd satanla nazlı danışdı, baqqala getdi çox danışdı, qonşuya getdi yalan danışdı, evdə oturdu nahaq danışdı... beləcə haqsız, mizansız, vicdansız bir həftə yaşadı. İşdən qanıqara gələn ər bikef-bikef deyindi: Belə də iş olar? Bir həftədir heç iş getmir. Çörəkpulu da çıxmır, mayadan xərcləyirəm. Arvad güldü: Bəs deyirdin sənin əməyin yoxdu?..

Kişinin təəccüblü baxışına bir həftənin nahaqqını, haramını anlatdı... Bax beləcə ər əmin oldu ki, ruzini, bərəkəti kişi tək qazanmır, ailənin birgə halallığı o bərəkəti yaradır.

Bəli, bərəkət verilmir, alınır. Öz təcrübəmdən gələn onlarla nümunə deyərəm. Halallığın açdığı qapılar, keçdiyi sədlər danılmazdır. Desəm halal adamlar tanıyırsınızmı? Deməyin tanıyıram. Bizim gördüyümüz görünən tərəfdir, görünməzi HAQQ bilir. Bu, mənim qənaətimdir, çünki bəzi "niyə", "nədən oldu" suallarını araşdırarkən nəticəni əməldə gördüm. O əməllər yaratdı bərəkəti.

Həyatda heç nə səbəbsiz deyil, qazancımız nəticəmizdir. Hər acımızda dönüb geri baxsaq səbəbi tapa bilərik. Əgər baxa və nəticə çıxara bilsək. Təbiət də halallıqdan aldığımız BƏRƏKƏT yolumuzu işıqlandırır.

Allah bərəkətimizi versin demirəm, bəndə halalını – vicdanını itirməsin ki, bərəkətli ömür yaşasın.

## MÜƏLLİMLƏR ÜÇÜN TİBBİ SIĞORTA PAKETİ DƏYİŞİBMİ? – HANSI MÜAYİNƏLƏR TAM MALİYYƏLƏŞDİRİLİR?

Müəllimlər ümumi səhiyyənin hədəf qrupuna daxildirlər və onların paralel olaraq özəl sığorta paketindən də istifadə etmək hüququ var. Buna baxmayaraq, müəllimlər sosial şəbəkədə tez-tez bəzi klinikaların onların lazımi müayinələrini tam maliyyələşdirmədiyini müzakirə edirlər. Bəzisi isə qeyd edir ki, həkim yanına getmək və ambulatoriya xidməti, ümumiyyətlə, maliyyələşdirilmir, hər bir müayinəyə pul ödəyirlər.

Hökumətin qərarı ilə müəllimlər ümumi sığortası olan şəxslər siyahısındadırlar və onlar başqa benefisiarlardan fərqli olaraq xüsusi şərtlərdən yararlanırlar.

Müəllimlərin sığorta paketində nəsə dəyişibmi? – "Etaloni.ge" bunu yoxlamaq üçün Gürcüstanın Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinə müraciət edib.

Rəsmi məlumata görə, müəllimlər üçün yeganə dəyişən odur ki, onlar analıq məzuniyyəti dövründə dövlət məmurları kimi əməkhaqqının 100 %-ni alacaqlar.

Müəllimlər ümumi sığorta proqramından yararlanmaq üçün ilk növbədə qeydiyyatda olduqları yerə əsasən ambulatoriyaya və ya poliklinikaya müraciət etməlidirlər:

**Dövlət 100 % maliyyələşdirir:**

- Ailə və ya kənd həkimi, tibb bacısı xidmətini, lazım gəldiyi halda kompetensiya çərçivəsində evdə xidməti;
- Milli təqvimlə nəzərdə tutulmuş profilaktik peyvəndlərlə təmin edilmə;
- Sağlamlıq vəziyyəti və risk faktorların qiymətləndirilməsi;
- Prevensiya tədbirləri;
- Xəstəliklərin diaqnostikası və idarə edilməsi;
- Ftiziatrik, psixi və endokrin xəstələrin aşkarlanması və xüsusi müəssisələrə istiqamətləndirilməsi;
- Müalicə olunmaz və şəkərli diabet xəstələrinə nəzarət;
- Fiziki imkanları məhdud olan şəxslərin sosial ekspertizası, konkret olaraq, fiziki imkanları məhdud şəxslərə status verilməsi üçün texnoloji müayinələrdən başqa lazımi müayinələr;
- Tibbi ehtiyacdan irəli gələrək tibbi arayış, nəticə və reseptlərin verilməsi (işə başlamaqla bağlı, sürücülük vəsiqəsi və silah almağa görə təqdim etmək üçün lazım olan sağlamlıq vəziyyəti haqqında arayışlardan başqa);
- Həkimin təyinatı ilə instrumental müayinələr – elektrokardioqrafiya.

**Həkim təyinatından sonra ambulatoriya kliniki-laboratoriya müayinələri:**

- Ümumi qan analizi;
- Ümumi sidik analizi;
- Perifer qanda qlükoza;
- Kreatinin;
- Hemoqlobin;
- Qanda xolesterin;
- Serum lipidlərinin müəyyən edilməsi;
- Gizli qanaxma ilə bağlı nəcis analizi;
- Protrombinin vaxtı (INR)
- Ailə və ya kənd həkiminin müraciəti ilə:

*Həkim-mütəxəssislərin xidməti – endokrinoloq, oftalmoloq, kardioloq, nevroloq, otorinolarinqoloq, ginekoloq, uroloq, cərrahın konsultasiyası.*

**Ambulatoriya şəraitində həkimin təyinatı ilə instrumental müayinələr:**

- Həzm sisteminin exoskopiyası (transabdominal olaraq);
- Sidik-cinsiyyət sistemi və kiçik çanaq boşluğu orqanlarının exoskopiyası (transabdominal olaraq);
- Döş qəfəsinin rentgenoskopiyası/rentgenoqrafiyası;
- Sümüklərin rentgenoqrafiyası.

*Kliniki-laboratoriya müayinələri – qaraciyər funksiyaları: ALT, AST, qalxanabənzər vəzin funskiyasının yoxlanması – TSH.*

*Müəyyən edilmiş siyahıya əsasən təxirəsalınmaz ambulatoriya xidməti 100 % maliyyələşdirilir.*

**Təxirəsalınmaz stasionar xidmət limitsizdir və maliyyələşdirilir:**

- İntensiv terapiya və kritik vəziyyətin idarə edilməsi – 100 %-lik maliyyələşdirmə ilə;
- Müəyyən edilmiş siyahıya müvafiq olaraq 450-dən çox təxirəsalınmaz vəziyyət – 100 %-lik maliyyələşdirmə ilə;
- Bütün digər təxirəsalınmaz və təcili vəziyyətin idarə edilməsi – 100 %-lik maliyyələşdirmə ilə.

Ümumi sığorta səhiyyə proqramı ilə bu kateqoriyadan yararlananlar üçün planlı cərrahiyyə əməliyyatları proqramla maliyyələşdiriləcək pulu nəzərə alaraq 100 %-lik maliyyələşdirilir.

*İllik limit – 15 000 laridir.*

- Kardiocərrahiyyə – proqramla maliyyələşdiriləcək məbləğ 100 %;
- Onkocərrahiyə – proqramla maliyyələşdiriləcək məbləğ 100 %.

Yoluxucu xəstəliklərin idarə edilməsi maliyyələşdirilir:

- Yoluxucu xəstəliklər siyahısına görə – 100 %;
- Kritik vəziyyətlə/intensiv terapiya – 100 %.

Dövət onkoloji xəstəliklərin müalicəsini 100 % maliyyələşdirir:

- Kimyaterapiya, hormonoterapiya və şüalanma terapiyası;
- Xərçəngə qarşı medikamentlərlə müalicə;
- Tibbi göstəricilərə əsasən qeyd olunan prosedurlar arasında lazım olan müayinələr.

*İllik limit – 25 000 laridir.*

**Doğuş və qeysəriyyə əməliyyatı:**

*Ümumi sağlamlığın müdafiəsi proqramı tibbi xidmət xərclərini sonrakı limitləri nəzərə almaqla əhatə edir:*

- Fiziki doğuş – 500 lari;
- Qeysəriyyə əməliyyatı – 800 lari;
- Yüksək riskli hamiləlik, doğuş və stasionar tibbi xidmət – 100 %-lik maiyyələşdirmə ilə.

## APARICI VƏ MENTOR STATUSU İMTAHANLARININ MATERİALLARINDA VƏ VAXTINDA DƏYİŞİKLİK EDİLİB

Aparıcı və mentor müəllim statusu istəyənlər üçün imtahana hazırlıq materialları ötən illə müqayisədə əhəmiyyətli dərəcədə azalıb. Bunu Müəllimlər Evi tərəfindən yayımlanmış tövsiyə edilən ədəbiyyat siyahısı da təsdiq edir.

**Daha dəqiq, 2023-cü ildə imtahan verəcək müəllim qanunvericilik aktlarından bunları bilməlidir:**

1. Gürcüstanın "Ümumtəhsil haqqında" qanunu;
2. Ümumi təhsilin milli məqsədləri;
3. Uşaq Hüquqları Konvensiyası;
4. Müəllimlərin peşə və karyera inkişafı sxemi;
5. Müəllimin peşə standartı;
6. Milli tədris planı;
7. Müəllimin Peşə Etikası Kodeksi.

**2022-ci ildə isə statusunu yüksəltmək istəyənlər üçün ilk dəfə imtahan keçirilən zaman yuxarıda sadalananlarla yanaşı müəllimlərdən bu qanunları bilmək də tələb olunurdu:**

- Gürcüstan Konstitusiyası;
- Gürcüstanın "Əmək Məcəlləsi";
- Gürcüstanın təhsil və elm nazirinin 2015-ci il 28 yanvar 126/ნ nömrəli "İctimai məktəb müəllimlərinin əməkhaqqının minimal miqdarı və şərtlərin tətbiq edilməsi haqqında" sərəncamı;
- Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin "Müəllimin fəaliyyətə başlamaq və dayandırmaq qaydasının təsdiqlənməsi haqqında" 2019-cu il 20 avqust 174/ნ nömrəli sərəncamı;
- Şagirdin Davranış Kodeksi;
- Direktorun Etika Kodeksi.

Peşə ədəbiyyatı siyahısı da azaldılıb. Bu dəfə müəllimlər 20 əvəzinə 10 dərslikdən hazırlanmalı olacaqlar. Aparıcı və mentor müəllimin ötən ilin imtahan ədəbiyyatından "İnklüziv erkən təhsil" dərsliyi çıxarılıb. Bundan əlavə, tövsiyə siyahısında "Sosial araşdırmada xüsusiyyət tədqiqat metodları", "Kəmiyyət tədqiqat metodları", "Təhsil psixologiyası", "İnkişafetdirici qiymətləndirmə və fərqli təhsil", "Təhsil və qiymətləndirmə", "Akademik stil", "Təlimçilər üçün praktiki dərslik", "Layihə dövrünün idarə edilməsi", 5 dərslik, "Kibermaarifləndirə lüğəti" və "Rəqəmsal rəqabət" yoxdur.

**2023-cü ilin tövsiyə olunan ədəbiyyat siyahısı belədir:**

1. Hamı üçün təhsil fəallıqları;
2. Fəaliyyət tədqiqatı – Cefri Mils;
3. Maariflədirmə layihəsini necə tərtib edək – müəllim üçün bələdçi;
4. Layihə yazmaq və idarə etmək dərsliyi;
5. Akademik yazı (216-158 səhifə);
6. Davamlı inkişaf məqsədləri üçün təhsil;
7. Demokratik mədəniyyət kompetensiyaları;
8. Vətəndaş təhsili;
9. Rəqəmsal vətəndaşlıq;
10. Məktəb bazasında müəllimlərin peşə inkişafı.

Qeyd etmək lazımdır ki, aparıcı və mentor olmaq istəyənlər üçün imtahan vaxtı da artırılıb. Ötən il bu vaxt 4 saat idisə, bu il 5 saatdır.

## ŞAGİRD VAUÇERLƏRİ QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏBLƏR ÜÇÜN NECƏ BÖLÜNÜB?

Baş nazir İrakli Qaribaşvilinin ümumtəhsil məktəblərində şagirdlərin vauçerlə maliyyələşdirilməsinə aid imzaladığı sərəncamda qeyri-gürcüdilli ictimai məktəblər üçün də məbləğ müəyyən edilib.

Bir şagird üçün nəzərdə tutulmuş maliyyə normativinin müvafiq standart vauçeri bir şagird üçün hesablanmış baza maliyyə normativi və müvafiq əmsalın hasilinə görə müəyyən edilsin.

Qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün 1-dən 8-ci sinfə qədər:

ბ.ა) Şagird sayı 170-dən 205-ə qədər olan qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 510 lari;

ბ.ა$^{1}$) Şagird sayı 170-dən 205-ə qədər olan dağlıq məntəqələrdə yerləşən qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 711 lari;

ბ.ბ) Şagird sayı 206-dan 299-a qədər olan qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 504 lari;

ბ.ბ$^{1}$) Şagird sayı 206-dan 299-a qədər olan dağlıq məntəqələrdə yerləşən qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 708 lari;

ბ.გ) Şagird sayı 300-dən 530-a qədər olan qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 501 lari;

ბ.გ$^{1}$) Şagird sayı 300-dən 530-a qədər olan dağlıq məntəqələrdə yerləşən qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 693 lari;

ბ.დ) Şagird sayı 531-dən 735-ə qədər olan qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 486 lari;

ბ.დ$^{1}$ ) Şagird sayı 531-dən 735-ə qədər olan dağlıq məntəqələrdə yerləşən qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 672 lari;

ბ.ე) Şagird sayı 736-dan 1269-a qədər olan qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 477 lari;

ბ.ე$^{1}$) Şagird sayı 736-dan 1269-a qədər olan dağlıq məntəqələrdə yerləşən qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 660 lari;

ბ.ვ) Şagird sayı 1269-dan artıq olan qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 474 lari;

ბ.ვ$^{1}$ ) Şagird sayı 1269-dan artıq olan dağlıq məntəqələrdə yerləşən qeyri-gürcüdilli məktəblər/sektorlar üçün – 651 lari.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# VİRTUAL ÇAYXANA



Təа qədim zamanlardan hər bir yaşayış yerinin öz çayxanası olub. Ərazidəki kişilər həmin çayxanaya gələr, dərdləşər, söhbət edərlər. Amma bu gündən danışsaq, çayxanaya gedənlər işə gedirmiş kimi saatlarını ötürmədən tam vaxtında orada olurlar. Yaşlılar ayrı, orta yaşlılar ayrı, gənclər ayrı saatlarda çayxanaya gedirlər. Çayxanada baş tutan söhbətlər ev tikib, ev yıxacaq səviyyədədir. Dövlət başçılarının ölkə haqqında danışmadıqlarını çayxana əhli, danışmaq oyana dursun, müzakirə edib, həllini tapacaq dərəcədədir...

Gələk gələcəyimiz olan gənclərə, axşam çayxana onlarındır, gecəyarısınadək kart, domino kimi oyunlar oynayıb, vaxtlarını boşa sərf edirlər...

Bəs çayxanaya gedə bilməyənlərin çayxanası haradır? – Bəli, sosial şəbəkələr.

Məsələn, axşamlar evdə nə edirsiniz deyə dostlarıma sual versəm, çoxunun cavabı "telefonda, instaqramda gəzindim", "bekarçılıq idi, tik-toka baxdım" və s. kimi cavablar olacaq. Digərləri isə "küçəyə çıxmışdım, uşaqlarla çayxanaya düşdük" cavabını verəcəklər. Sonra da, "eşitmisənmi, filankəsin başına belə bir iş gəlib" deyib həmin dəqiqə başqalarının həyatı haqqında danışmağa başlayırlar.

Günümüzün sosial şəbəkələri elə virtual çayxanalardır. Necə ki, səksənlərin sonunda cəbhəçilər çayxanalarda imperiya yıxıb, dövlət qururdular, eləcə də bu gün, virtual çayxanalarda istədiyiniz mövzu danışılır. Bir sözlə, "avtoritar rejim" yıxılıb, yerinə "demokratik qüvvələr" hakimiyyətə gətirilir və s...

Sosial şəbəkələr arasında ən populyar olan instaqram bu gün bəziləri üçün hər cür funksiyanı yerinə yetirir: yediyi yeməyi reklam etmək, getdiyi yerin ən xırda detalına qədər paylaşmaq, başqalarına söz atmaq və s. Şəkil paylaşıb sonra da "qızlar, tez şəklimə çoxlu rəy yazıb, bəyənin" deyə qrupa mesaj yazanlar var. Rəylər də ki, sadəcə "ürəyim", "qızım", "bu nə gözəllikdir" kimi suni sözlərdən ibarət olur. Onu da deyim ki, daha çox ingilis dilində yazırlar, belə olanda "cool" olurmuş. Gülməlidir, ingilis dilində iki kəlmə söz bilməyənlər "google translate" vasitəsilə söz tərcümə edib, rəy yazıb "cool" görsənməyə çalışırlar. Paylaşdıqları şəklin üzərində saatlarını itirərək şəkli effektlərlə, xoşuna gəlməyən yerləri kəsib-biçməklə başqa birini ortaya çıxaranlar belə var.

İnstaqramdan tanıdığım bir qız var idi, daha doğrusu, sadəcə paylaşdığı bir şəklini görmüşdüm. Sözün açığı, necə gözəldir deyərək şəklini bəyənmişdim. Sonra bu qızı bir tədbirdə gördüm, oxşatmadım, nə yalan deyim, qızın haqqında düşündüklərimlə gerçəkdə olan məni çox təəccübləndirdi. Qızın şəkillərinə baxanda sanki xarici ölkədə yaşayan 18-19 yaşlı gözəl bir gənc qız görürsən. Di gəl gör ki, həmin qız elə bizim rayonun kəndlərindən birində yaşayan bir yeniyetmə imiş. Şəkildə gördüyüm, gözəlliyinə heyrətlə baxdığım qızla qarşımdakı qız bir-birinin əksi idi...

Sözümün canı budur ki, instaqram sadəcə yalanlardan ibarətdir; suni rəylərdən, suni şəkillərdən ibarətdir, heç kim özünü olduğu kimi paylaşmır.

Mənə gülməli gələn paylaşımlardan biri də kitab paylaşımlarıdır. Kitabın yanına biriki şam qoyub paylaşım edirlər, yəni ki, baxın, mən kitab oxuyuram. Halbuki şəklini paylaşdığı kitabda söhbət nədən gedir, xəbəri yoxdur.

Bunları qoyaq bir yana, bəziləri üçün evlilik proqramı halına gəlib sosial şəbəkələr. Bir qızın səhifəsində yad oğlan profili görən kimi başlayırlar dedi-qoduya. Heç altını-üstünü bilmədən danışırlar, düşünmürlər: bəlkə qohumudur, bəlkə sinif yoldaşıdır, bəlkə tanışıdır... təki danışmağa söz olsun.

Bəli, sosial şəbəkələrin həyatımızda böyük rolu var, amma düzgün istifadə qaydası şərtilə. Bəziləri üçün sosial şəbəkələr həyatın mühüm tərkib hissəsinə çevrilibdir.

Vaxt çox dəyərlidir. Yaşadığım həyat necədir deyə heç özünüzə sual vermisinizmi? Başqalarının həyatınımı izləyirik, yoxsa öz həyatımızımı yaşayırıq? Heç tanımadığımız, bilmədiyimiz insanlar haqqında danışırıq, onları izləyirik saatlarla. Dörd saat telefon və ya televizor izləməyin səkkiz saat işləmək qədər insan beynini yorduğunu bilirsinizmi... Başqalarının etdiklərinə baxıb onlara bənzəməyə çalışmaq yerinə, özümüzə daha çox vaxt ayırsaq daha yaxşı olar.

Düzdür, sosial şəbəkələr bəşəriyyət tarixində ən önəmli yeniliklərdən biridir. Sosial şəbəkələr virtual bir dünyadır. Virtual dünya real dünyadan uzaqlaşmağa şərait yaradır. Sosial şəbəkə "sakinlərinin" əksəriyyəti real həyatda müxtəlif problemlərlə üzləşmiş insanlardır. Sosial şəbəkələr isə bu insanlara sanki bir növ sığınacaq yeridir. Biz gənclər, ümumiyyətlə, bu cür sosial şəbəkələrdən istifadə edən hər bir şəxs, özünə məhdudiyyət qoysa daha yaxşı olar. Saatlarla ekranı yuxarı sürüşdürərək vaxtımızı itirmək yerinə, vaxtımızı daha maraqlı şeylərə sərf edə bilərik.

İnternet azaddır, ondan faydalanmağa çalışmalıyıq, mənfi tərəflərindən, zamanımızı alan tərəflərindən uzaqlaşıb, müsbət tərəflərini kəşf etməliyik.

**Aytən Fətullayeva**
Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

## QEYBƏT ETMİRİK, SÖHBƏT EDİRİK...



Bildiymiz kimi, qeybət bütün dünyada, eləcə də dinimizdə müsbət qarşılanmır. Ancaq nə qədər pis vərdiş olsa da, qeybət etməkdən əl çəkmirik. Qeybət dedikdə ağıla ilk qadınlar gəlir. Ancaq bu o demək deyil ki, kişilər qeybət etmirlər. Təəssüflər olsun ki, kişilər qadınlardan daha çox qeybət edirlər. Günlərini çayxanalarda, küçələrdə keçirən gənclər, qocalar özlərinə qeybət obyekti tapırlar, hətta birinin üstünə beşini qoyub qeybət edirlər. Hələ evdə otura-otura hər şeydən xəbərdar olan xalaları demirəm... Bilirik ki, nəsə hadisə olanda xəbər kanallarından eşidərik, ancaq sağ olsun xalalarımız, xəbər kanallarından daha yaxşı işləyirlər, elə ilk məlumatlar onlara gəlib çatır və yayılmasına bir saniyə belə bəs edir. Bir sözlə, hər şeyi çox yaxşı həll edirlər.

Kiminsə haqqında və yaxud hər hansı mövzu haqqında danışmağa başlayanda "mən qeybət etmirəm, sadəcə..." sözləri ilə başlanılır, hətta uzun-uzadı sözlər seçərək danışırıq ki, qeybətimiz daha dolğun olsun.

Bir gənc olaraq eşitdiyim dedi-qodular mənə çox gülməli, bir o qədər də ağlamalı gəlir. 16-17 yaşlı gənclərin etdikləri qeybətlər nə haqda ola bilər... Hansından başlayım? Məsələn: eşitdinizmi, filan qız nişanlanıb; filan oğlan maşın istədiyi üçün valideynləri ilə dalaşıb; filan qız son model telefon istəyir, bu qız çox gözəl idi, necə də kökəlib, çirkinləşib və s. Yüzlərlə bu cür misal çəkmək olar. Bu da yetmirmiş kimi, üstəlik lağ edirik: son model telefon alsa nə olacaq, onsuz da çirkin həmişə çirkindi, depressiyaya düşüb, yəqin ona görə kökəlib və s. Hamı haqqında yaxşı, pis danışıb bitirdikdən sonra isə saatın necə keçdiyini anlamadan danışmağa başqa mövzu axtarırıq.

Ən pisi də nədir bilirsinizmi? – Qeybətini etdiyimiz adamları görərkən üzünə gülüb qucaqlayırıq, hal-əhvalını soruşuruq... Bu, nə qədər doğrudur axı?..

Oxuduqlarıma, bildiklərimə görə, dində qeybət etmək günahdır. Bu belədirsə, bəs bəzi dinə quluq edənlərimiz nə üçün qeybət edirlər? Tutaq ki, mən cahiləm, bilmirəm günah olduğunu, oturub qarşında qeybət edirəm; sən ki bilirsən, nə üçün mənə demirsən günahdı, kim nə edir özünə edir, bizə düşməz başqalarının həyatı haqqında danışmaq. Bunu demək yerinə, oturub mənimlə qeybət üstə qeybət edirsən. Hətta qeybətini bitirdikdən sonra "Allahım, sən bağışla bizi, qeybət etmirik, söhbət edirik" deyirsən.

Qeybət ayədə belə ifadə edilmişdir: "Qeybət etmək ölmüş bir insanın ətindən yeməkdir". Bir insanın qüsurlarını üzünə demək günah olduğu kimi, arxasınca danışmaq daha böyük günahdır. Kiminsə arxasınca danışmadan əvvəl özümüzdən soruşmalıyıq: mənim düşüncəm, vicdanım haradadır ki, kiminsə haqqında qeybət edirəm.

"Başqalarının qüsurlarını görməkdə qartallara, öz xətalarımızı görməkdə isə köstəbəklərə bənzərik," – kəlamı bu mövzunu necə gözəl ifadə edir. Başqalarının qüsurları ilə deyil, öz xətalarımızla məşğul olmaq hər kişinin yox, ər kişinin işidir.

İnsanıq, səhv edə bilərik, günahlarımız ola bilər, əsas məsələ etdiymiz səhvlərdən dərs çıxarmağımızdır.

**Alina Fətullayeva**
Qardabani 3 nömrəli ictimai məktəbin 12-ci sinif şagirdi

## HƏYAT GEC OYANMAĞI BAĞIŞLAMIR



Yuxunu nə qədər sevirsiniz, neçə saat yatırsınız? Məsələn, mənim yaşıdlarım var, səhər saat 11-ə, 12-yə kimi yatırlar. Günə, həyata başlamaq üçün, gələcəyimizi planlaşdırmaq üçün, həyatda bəzi şeyləri öz qaydasına salmaq üçün bu, gec deyilmi? Bu qədər yatmaq yerinə insan gərək qarşısına bir məqsəd qoya axı...

Məsələn, mən universitetə qəbul olmaq üçün hazırlıqlara gedirəm, boş vaxtlarımda rəsm çəkirəm, son zamanlarda pianino kursuna getmək haqqında düşünürəm... Ən birinci məqsədim isə 12 illik təhsilimi başa vurmaqdır. Bütün bunlara isə yuxuda nail ola bilməyəcəyimi də yaxşı bilirəm.

Bəs siz məqsədlərinizə çatmaq üçün nə edirsiniz? Ümumiyyətlə məqsədləriniz varmı? Yuxu qədər şirin məqsədlərdirmi onlar?.. Məqsədsiz həyat heç vaxt oyanmayacağımız bir yuxudur. Ona görə də əgər məqsədimiz yoxdursa günün neçə saatını yuxuda keçirməyimizin fərqi yoxdur.

Qaldı ki, çox yatmağa və ya gec qalxmağa, məncə, gec oyanan insanların əksəriyyəti gec yatanlardır. Ötən günlərdə məktəbdə "Əşya insanı idarə edə bilərmi?" başlığı altında çox maraqlı bir dərs keçdik. Başlığı eşidən kimi hamı "bəli, telefon" deyə cavab verdi. Təbii ki, haqlı idilər. Doğrudan da indi uşaqdan tutmuş gəncinə, gəncindən tutmuş yaşlısına qədər hamının meyli telefondadır. Kim ki gec qalxır, səbəbini soruşanda gecənin bir vədəsinə kimi seriala, verilişə, nə bilim nəyə baxdığını deyir; tik-tokda canlıya girdiyini, instaqramda eşələndiyini və bunun kimi bir çox vaxt itkisi yaradan səbəblər deyir. Belə olanda gec yatırsan, gec yatanda da gec oyanırsan təbii. Bu da məktəbə gecikməyinə, dərs buraxmağına səbəb olur. Gör həmin gün nələri itirirsən. Amma vaxtında oyanıb dərsinə də vaxtında gedə bilərdin...

Və bir daha əmin olursan ki, telefon doğrudan da insanları idarə edir. Bəlkə bu dediklərim kiməsə mənasız gələ bilər, amma, əslində, mənim burada sizə çatdırmaq istədiyim bir mesaj var: saat durmadan irəliləyir, bizi məqsədlərimizdən bir addım daha uzaqlaşdırır, biz isə yenə də telefonun robotu olmağa, saatlarla yatmağa davam edirik. Mən demirəm yatmayaq, yatmağın insan orqanizmi üçün nə qədər vacib olduğunu hamı yaxşı bilir. Sadəcə lazım olan qədər yatmaq lazımdır. Əgər çox yatmağa davam etsək gələcəyə məğlub olarıq. Həyat isə gec oyandığımız üçün bizi əsla bağışlamayacaq.

**Sübhanə Abdullayeva**
Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ
## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK
### (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Təhlil olunan eposun, demək olar ki, bütün boylarında igid süvarinin həyatı Qazılıq dağı ilə, ümumiyyətlə, yüksək ala və ya qara, çətin aşılası dağ ilə əlaqədardır. Demək mümkündür ki, bu çətin aşılası dağ tale yazısı kimi oğuz igidinin həyatını fırladır: o, qalxanda və yerindən tərpənəndə, bədəvi atına minəndə ala dağı aşmalı olur (Elə orada, səh. 138, 134, 135, 143 və sair). Bir sözlə, bu dağı aşmaqla oğuz ov ovlamağa, qorxulu və çətin işlərin həllinə başlayır. Və bir növ girişin təsviri kanonik xarakter kəsb edir.

Lakin daha maraqlısı odur ki, oğuz bəylərinin taleyi, xoşbəxtliyi, bədbəxtliyi məhz elə bu Qazılıq dağı ilə əlaqədardır. Uruz söhbətini belə başlayır: "Qarşu yatan qara dağlar istər olsa, el yaylar" (Elə orada, səh. 113). Xan Qazan oğluna belə deyir: "Qarşu yatan qara dağlar qarısa, otı bitməz, el yaylamaz!" (Elə orada səh. 115). Bu kəlmələrdən sonra çayların və ev heyvanlarının cinsinin pozulması, cırlaşması baş verir. Bir sözlə, oğul da, ata da bir fikirdə dayanıblar: camaatın rifahı təbiətdən və ələlxüsus da qarşı duran dağların durumundan asılıdır. Bu baxış dairəsi Beyrəyin bacısı öz qardaşını ozan bildiyi və xahiş etdiyi epizodda da aydın şəkildə özünü büruzə verir:

***"Qarşu yatan qara dağım yıqılubdur,***
***Ozan, sənin xəbərin yoq.***
***Kölgəlicə qaba ağacım kəsilübdür,***
***Ozan, sənin xəbərin yoq.***
***Dünyəlikdə bir qardaşım alınubdur,***
***Ozan, sənin xəbərin yoq.***
***Çalma, ozan, ayıtma, ozan,***
***Qaraluca mən qızın nəsinə gərək, ozan?***
***İləyündə dügün var,***
***Dügünə varub ötgil!"*** (Elə orada, səh. 88-89).

Gətirilən çıxarış aydınca bizə məlumat verir ki, qara dağın yıxılması və kölgə salan nəhəng ağacın kəsilməsi qardaş itirməkdən irəli gələn bədbəxtliyə bərabərdir. Sətir aşırı rədif ilə təkrarlanan "Ozan, sənin xəbərin yoq" faciəvi duyğunu gücləndirir. Elə burada qeyd etmək lazımdır ki, kölgə salan nəhəng ağacın xüsusi əhəmiyyəti başqa yerdə də qeyd olunmuşdur. Ümumiyyətlə, boş, uzun-uzadı düzənlikdə cəfa çəkməli olan köçəri tayfaların kölgə salan ağac çox hoylarına yetirdi. Buna görə də, oğuzların ağaca qarşı, bir kölgəlik salana qarşı münasibəti tamamilə təbiidir. Lakin onların ağaca qarşı ənənəvi münasibəti, eləcə də suya qarşı olduğu kimi, onların praktiki dəyərinə nisbətən, daha dərin düşüncə köklərini əhatə etməlidir. Və ağac da islamın geyiminə bürünmüş, dini, ələlxüsus islamın dəyərlərinin rəmzi göstəricisidir. Uruzun onun asıldığı ağaca yalvarışla müraciət etdiyi epizod diqqətəlayiq və maraqlıdır:

***"Ağac, ağac! Dersəm sana, ərlənmə ağac!***
***Məkkə ilə Mədinənin qapusı ağac!***
***Musa Kəlimün əsası ağac!***
***Böyük-böyük suların köprisi ağac!***
***Qara-qara dənizlərin gimisi ağac!***
***Şahi-mərdan Əlinin Düldülinin əyəri ağac!***
***Zülfiqarın qınıyla qəbzəsi ağac!***
***Şah Həsənlə Hüseynün beşigi ağac!***
***Əgər ərdir, əgər övrətdir, qorxusı ağac!***
***Başın ala baqar olsam, başsız ağac!***
***Dibin ala baqar olsam, dibsüz ağac!***
***Məni sana asarlar, götürməgil ağac!***
***Götürəcək olursan, yigitligüm səni tutsun, ağac!***
***Bizim eldə gərək idin, ağac!***
***Qara hindu qullarıma buyuraydım,***
***Səni para-para doğrayalardı, ağac!"***

Bu hədədən sonra öz bədəvlərinə, yasa batan dostlarına, şahinə, qanıq itlərə və nəhayət, özünün bu fani dünyada yaşamağa hərisli olan cavan canına yazığı gəlir (Elə orada, səh. 60-61).

Gətirilən çıxarış onunla diqqətəlayiqdir ki, birincisi, onu bağışlayan və ürək-dirək verən ağaca müraciət edir, sitayiş bütü olaraq. Burada bir növ qədim oğuz ənənəsinin, istərsə də inamın əks-sədası əks olunmalıdır, bu da müəyyən dərəcədə bizi düşündürür ki, bütpərəstliyin, daha doğrusu, şamanizmin köklərinin güclü şəkildə müsəlmanlaşdırılmasına baxmayaraq, hələ də ozanın ruhunun dərinliklərində qalıbdır. Ağaca sitayiş üç aspekti ilə təqdim olunmuşdur: səmada, yer altında və yer üzərində, hökmranlıq edirdi və səmaya qalxmaq vasitəsi olaraq dərk olunurdu (Bax: Л.Я.Штернберг, Первобытная религия в свете этнографии, Л., 1936, səh. 123-125). Güman ki, buna görə də ozan istəyir ki, bu sitayişi islamın, daha doğrusu, şiə əzabkeşlərinin adlarının və ümum islamın müqəddəs sayılan şeylərinin köməkliyi ilə həyata keçirsin. Lakin ağaca sitayiş edilməsində bu cür yanaşma öz-özlüyündə ondan xəbər verir ki, qədim oğuz inamı və ənənəsi izsiz itməyib, öləziyən köz kimi közərir və ən başlıcası, bu yalvarış – əfv diləmənin ardıcıllığına diqqət yetirsək, əvvəlcə bədəvilərin, sonra dostların, sonra şahinin və qanıq itin sadalanması təsadüfi olmamalıdır, oğuz bəyinin ruhunun sarsılmazlığından və təbiətlə dərk olunan insanın halallığından xəbər verir.

İndi yenə Qazılığın ala dağına qayıdaq və onu da deyək ki, o gah qarğış obyekti olur, gah da ki, xoşbəxtliyin müjdəçisi. Budur, ana ölməkdə olan oğlunu necə ağlayır:

***"Qara qıyma gözlərin uyxu almış, açğıl axı,***
***Ol ikicə sünücügün uzun olmış, yığşur axı,***
***Tanrı verən tatlu canın seyranda imiş, endi dəxi,***
***Üz-gözündə canun varsa, oğul, xəbər mana!***
***Qara başım qurban olsun, oğul sana!***
***...***
***Bitər sənin otların, Qazılıq dağı,***
***Bitər ikən bitməz olsun!***
***Qaçar sənin keyiklərin, Qazılıq dağı,***
***Qaçar ikən qaçmaz olsun, daşa dönsün!***
***Nə biləyin, oğul arslandanmı oldı,***
***Yoxsa qaplandanmı oldı?***
***Nə biləyin oğul, bu qəzalar sana nerədən gəldi?!"***
(Elə orada, 44).

Gətirilən sitatın ilk üç sətri ana qəlbindən qopan həddən artıq təəssürat oyadıcı nalədir ki, bu da insani duyğunun ifadə olunması sadəliyinin göstəricisidir və eyni zamanda, emosiyalı təsir qüvvəsinin əhatədicisidir. Bundan sonra Qazılıq dağının lənətlənməsi gəlir ki, bunu da ana bədbəxtliyin səbəbi olaraq hesab edir, onun faciəsinə duyğusunun kəskinliyi effektli olaraq uyğun gəlir. Halbuki oğul anaya təsəlli verir, bildirir ki, Qazılıq dağının onun bədbəxtliyində günahı yoxdur və əgər günahkar varsa, o da onun atasıdır.

İndi Banıçiçəyin Beyrəyin anasını oğlunun sağ qalmasını və yaxşı olmasını necə muştululadığını xatırlayaq:

***"Arğab-arğab qara dağın yıxılmışdı, yucaldı, axır!***
***Qanlu-qanlu suların sovğulmışdı, çağladı, axır!***
***Qaba ağacın qurımışdı, yaşardı, axır!***
***Şahbaz atın qarımışdı, qulun verdi, axır!***
***Qızıl dəvələrin qarımışdı, köşək verdi, axır!***
***Ağ qoyunun qarımışdı, quzı verdi, axır!***
***On altı yıllıq həsrətin-oğulun Beyrək gəldi, axır!***
***Qayın ata, qayın ana, muştuluq mana nə verərsiz?"***
(Elə orada, səh. 95-96).

Gətirilən parça tamamilə bir-birinə zidd mənzərəni bizə təklif edir. Bir sözlə, fakt faktdır ki, oğuzların həyatında bu dağ mühüm yer tutur. İllah da ki, onların həyatının, bu, istər xoşbəxtlik olsun, istərsə də bədbəxtlik, mübağiləsiz müştərək iştirakçısıdır: əgər o pozulursa, oğuzların taleyi tərsinə fırlanır və bu bədbəxtlik təkcə insanın deyil, eləcə də ev və çöl heyvanlarının başında çatlayır. Və əgər dağ və onun ətrafı çiçəkləyirsə, insanın ruhunda, istərsə də təbiətində sərbəstlik hökm sürür. Buna görə də, təbiidir ki, Qazılıq dağı eposun süjetinin inkişafında və təcəssümlülük sisteminin formalaşmasında diqqətəlayiq yerlərdən birini tutur. Elə götürək o faktl ki, ürəyi dağlı ana, Qazan xanın xatunu öz itən, yeganə oğlunu "sıra qara dağların zirvəsi" ilə müqayisə edir: "Qarşu yatan qara dağım yüksəgi, oğul" (Bax: Kaçalinin nəşri ilə "Dədə Qorqud", səh. 108). Və dağa qarşı bu cür münasibət "Dədə Qorqud"un demək olar ki, bütün boylarında eposun qəhrəman və yüksəlmiş ruhun ifadəçisi olaraq özünü büruzə verir. Mühümü odur ki, bu gözəl əsər yarananda, hələ yenə də insan təbiətlə harmonik əlaqə yaradırdı və demək mümkündür ki, onunla birlikdə böyüyürdü, onunla qarşı durmağa, ayrı düşməyə heç də cəhd etmirdi. Qeyd etmək lazımdır ki, təbiətin və insanın bu harmoniyası, ümumiyyətlə, orta əsrlərin fəlsəfi, istərsə də bədii düşüncə sistemini xarakterizə edir. Halbuki onu da unutmamalıyıq ki, təbiətlə, xüsusən də Qazılıq dağı ilə bu güclü mənəvi, fiziki əlaqəni dini inanc da şərtləndirirdi. Ümumiyyətlə, dağa tapınma ibtidai dinlərdə və türk əsilli tayfalarda da məlumdur və müqəddəs yer olaraq hesab edilirdi ki, bu da şamanizmin mürəbbiləri arasında yayılmışdır 1*.

---

1* *(Bax: Liya Çlaidze, Oğuznamə (gürcü dilində), Tbilisi, 1974, səh. 24-25; И.В.Стебелева, К реконструкции древнетюркской религиозно-мифологической системы, Тюркологической сборник, 1971, М, стр. 214-216; Abdülkadir İnan, Tarihte ve Bugün Şamanizm, İst., 1953 iss).*

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## GEDİŞ-GƏLİŞ
### 28. GƏMİLƏRİ GƏLMƏZ SAYA



*(əvvəli ötən sayda)*

Niderlandın dəniz ölkəsi olmasını bilirsiniz. Şimal dənizi bu ölkənin 451 km ərazisini öz dalğaları ilə yumaqdadır. Üstəgəl gəmiçiliyə yararlı çayları, yüz kilometrlərlə uzanan kanallar şəbəkəsi ilə Niderlandı Avropanın bir dəniz ölkəsi kimi təqdim etməyə imkan verir. Hollandların tarixən yaxşı dənizçi və gəmiçi olduqları bəllidir. Sözarası, dənizçiliyin və gəmiçiliyin bu ölkənin insanlarının xarakterində yenilməzlik, barışmazlıq, mübarizlik kimi izlər buraxdığını da qeyd edim. Müstəqilliyini elan etdikdən sonra Niderland əhalisi bu bacarıqlarını daha da gəlişdirmiş, gəmilərinin sayını artırmış, uzaq-uzaq ölkələrə səfərlərə çıxmış, dünyanın dəniz ticarətində, yük daşımalarında sanballı paya sahib olmuşdur. Bu ənənə bu gün də davam etməkdədir və ölkənin iqtisadi inkişafının məhək daşıdır. Ərazi baxımdan dünyada 124-cü sırada qərarlaşan Niderland iqtisadiyyatının səviyyəsinə görə dünya ölkələri arasında 16-cıdır. Möcüzə göstəricidir, elə deyilmi? Bunu nə qədər ölkənin əlverişli coğrafi mövqeyi ilə, iqtisadiyyatın düzgün təşkil olunması ilə əlaqələndirsək də, bu uğurların arxasında Niderland insanın yenilməz iradəsinin, onun nizam-intizama tabe olmasının, zəhmətə qatlaşmasının əlamətlərini görə bilərik.

Yuxarıda deyilənlərə dayanaraq biz hollandları "dənizçi xalq" kimi xarakterizə edə bilərik. Gəmiqayırmada bir sıra yeniliklərə imza atan hollandlar həm də yeni gəmi növləri – tyal, vlibot, xolk və s. icad etmələri ilə adlarını tarixə yazdıra bilmişlər. Niderlandda təxminən on min əvvələ aid qayıq qalığının aşkar edilməsi ölkədə dənizçiliyin tarixinin qədimlərə gedib çıxdığını təsdiqləyir. Hələ qədim dövrlərdən bu ərazidə yaşayan əhali arasında qayıqlara, gəmilərə hörmət o dərəcədə idi ki, ölən qadınları və kişiləri öz qayıqlarında və ya bu qayıqların daşdan hazırlanmış oxşarlarında dəfn edirdilər. Dəfn mərasiminin bu şəkildə icra olunması əhali arasında dənizçilik kultunun yaranmasından xəbər verir. Ölüləri qayıqlarda dəfn etmə gələnəyi dünyanın fərqli coğrafiyalarında da müşahidə edilmişdir. Niderlandda gəmilərə belə bir qutsal münasibətin varlığı Azərbaycanın Gəmiqaya, Qobustan kimi qayaüstü abidələrindəki ayin-ritual əhəmiyyəti daşıyan gəmi təsvirləri ilə səsləşir. Bu sahənin araşdırıcıları üçün ipucu ola biləcəyini düşünərək bu fakt barədə bir qədər geniş danışmalı oldum.

Dənizçilik texnolojisində də onlar öz sözlərini deyə bilmişlər. "Astronomik həlqə", Markator proeksiyası kimi yeniliklər məhz bu xalqın adı ilə bağlıdır.

Niderlandda gəmiqayırmanın, dəniz ticarəti və balıqçılığın sürətli inkişafı İngiltərə ilə rəqabət şəraitində baş verirdi. Bu isə dənizlərdə ağalıq üstündə onların arasında XVII-XVIII yüzilliklərdə dörd dəfə müharibəyə gətirib çıxarmışdır. Bu müharibələrdə yenilməsinə baxmayaraq, Niderland dəniz ölkəsi statusunu bu gün də qorumaqdadır. Yeni torpaqlar, yeni gəlir mənbələri uğrunda mübarizəyə qoşulan Niderland böyük uğurlara imza ata bilir. Qərbi Afrikada, Şimali Amerikada, Karib hövzəsində, Cənubi Amerikada, Cənubi Asiyada, Uzaq Şərqdə yeni kaloniyaların əsasını qoya bilir. Bütün bunlar gəmiqayırmanın sürətli inkişafı fonunda baş verirdi.

Niderland gəmiqayıranların təcrübəsinə ayrı-ayrı ölkələrdə də böyük maraq göstərmiş, ondan bu və ya digər dərəcədə yararlanmağa çalışmışlar. Rus çarı I Pyotrun bu məqsədlə Niderlanda gəldiyi, təğyiri-libas olub, başqa adla gəmiqayırmanın sirlərinə yiyələndiyi də məlumdur. Görünür gənc rus çarına cəbr, həndəsə və hərb elmlərini öyrədən holland mənşəli müəllimi Timmerman belə bir səfərə maraq oyatmışdır. Onun Saardam şəhərinə yerləşdiyi və burada bu sirləri öyrənərək vətəninə qayıtdığı, Rusiyanı dəniz dövlətinə çevirmək üçün donanma yaratdığı, həmin donanmanın da iştirakı ilə savaşlar apardığı məlum tarixi gerçəkliklərdir. I Pyotr bu islahatları ilə Rusiyanı böyük dəniz dövlətinə çevirə bilmiş, bundan sonra Rusiya imperiya, I Pyotr isə imperator elan edilmişdir.

Niderland yaxta istehsalı sahəsində bu gün də dünyanın irəlidə gedən ölkələrindən biridir.

Niderland bu gün də dünyada dəniz ticarət donanmasının xüsusi çəkisinə görə liderlərdəndir. 550 əsas gəmi. Donanmada ümumilikdə losman, yedək və kabotaj gəmiləri ilə birlikdə 1000 gəmi var. HISWA-nın (Milli Yaxta Assosiasiyası) məlumatına görə, ölkə sularında 174 min, quruda isə 100 min kiçik gəmi var. Yəni o 100 min gəminin sahibləri ondan fasilələrlə istifadə edirlər. Yalnız lazım gələndə onu suya endirir, müəyyən vaxt ondan yararlanır, lazım olmadıqda isə onu quruya çıxarırlar.

Bu gün Niderlandda gəmilərin idarə olunması, gəmiqayırma, yük daşımaçılığı və s. ixtisaslar üzrə bakalavr və magistr təhsili verən xeyli təhsil müəssisəsi də fəaliyyət göstərir. Bu sahədə təhsil alanlar arasında əcnəbilər də çoxdur. "Çörəyi çörəkçiyə ver, birini də üstəlik" demirikmi? Elə işi də biləndən, ustasından öyrənmək ən doğru yoldur. Bunu da ona görə deyirəm ki, bəlkə gələcəyini dənizlə bağlamaq istəyənlərimiz var. Niderlanda gəlib istəklərini gerçəkləşdirə bilərlər.

İş elə gətirdi ki, mən 2020-ci ilin yanvarından Niderlandın Zuid Hollanda (Cənubi Hollandiya) əyalətində yaşamalı oldum. Rotterdamın Avropanın ən böyük limanı olduğunu da bilirdim. Əyalətin Rotterdam bələdiyyəsinə tabe olan Hoogvliet rayonunda yaşadığım evin eyvanından Oude Maas çayında gecə-gündüz demədən hərəkət edən gəmiləri, bərələri seyr etməkdən doymurdum. Yaşadığım binanın yaxınlığından keçən bu çayın sahilindən gəmilərin keçişini müşahidə etdiyim vaxtlar da olurdu. Qarşımdan keçən gəmilərin hansı ölkəyə aid olduğunu müəyyənləşdirməyə çalışırdım. Nə gizlədim, gözüm daima Azərbaycan, Gürcüstan bayraqlı gəmilər axtarsa da, bu istəyimə nail ola bilmədim.

Dünyanın dörd bir yanından gələn gəmilər Rotterdamda dayanır, nəfəslərini burada dərir, gətirdikləri yükləri boşaldır, elə burada da təkrar yüklənir, təkrar dünyanın dörd bir tərəfinə üz tuturdular. Böyük gəmilərin Avropaya gətirdiyi yüklərin ünvanına çatdırılmasında kiçikli-böyüklü bərələr günün istənilən saatında bir-birinə macal vermirmiş kimi ora-bura tələsirdilər. Gecələr yaşadığım mənzilin eyvanından bu gəmilərin sayrışan işıqlarını görürdüm, heç o səmtə baxmasam da gurultularını eşidirdim. Elə bu işıqlarla, bu gurultularla keçib gedən gəminin böyüklüyünü-kiçikliyini, yüklü-yüksüz olmasını müəyyənləşdirmək istəyərək, koronaviruslu günlərin boşluğunu əyləncəyə çevirirdim. Hərdən bu gəmilərin yük daşımalarından nə qədər qazanc götürdüyünü, ölkənin büdcəsinə nə qədər gəlir gətirdiyini də hesablamağa çalışırdım. Kasıbın peşəsi varlının pulunu hesablamaq deyilmi? Bu həqiqəti beynimdən keçirməyim belə məşğuliyyətimə mane ola bilmirdi. Nə yalan söyləyim, hesablamalarım milyardlara dayananda bu ölkəyə həsəd də aparırdım. Gəmilərin hərəkətini sürəkli izləməklə yanaşı, tez-tez "su yoluna döndəriblər" ifadəmizi də xatırlayırdım. Hərdən beynimdə su yolunun, su nəqliyyatının ucuzluğu da qığılcım kimi parlayırdı.

Nə demək olar, Allah kişilərin çörəyini də sudan verib, su yolundan verib, suda yaşayan balıqdan verib. Balıq istəyənin də ayağı suda gərək. Halalları olsun. Hollandlar uzun müddət dəniz nəhənglərinin – balinaların ovlanmasında da öz sözünü deyə bilmiş xalqdır. Sadəcə beynəlxalq qınaq onları bu məşğuliyyətlərindən məhrum etmiş, balina ovçuluğu hollandlar üçün arxaik peşəyə çevrilmiş və bu peşənin holland xalqının tarixi ilə məşğul olan, dənizçilik tarixini araşdıran tarixçilər üçün faktdan başqa bir dəyəri qalmamışdır.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2023-Cİ İL
№ 002 (173)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GƏLƏCƏYİN TƏLƏB OLUNAN İXTİSASLARI



İxtisas seçimi çətin və məsuliyyətlidir, gələcəkdə fəaliyyətimiz məhz etdiyimiz seçimdən asılıdır. Əsas olan isə seçdiyimiz peşəni sevməkdir; həmçinin seçdiyimiz ixtisas bizim imkanlarımıza uyğun olmalıdır.

Zamanla insanların marağı da dəyişir. Əvvəl hüquqşünas və həkim peşəsi aktual idisə, indi müxtəlif araşdırmalara istinadən demək olar ki, İnformasiya Texnologiyaları (İT), mühəndis və makretinq sahələri daha qabaqcıl yer tutur.

Texnologiya dövrü olduğuna görə kompüter texnologiyalarına tələb artıb. Həmçinin bu sahələr üzrə çalışanlar yüksək əməkhaqqı ilə təmin olunurlar.

Araşdırmalara əsasən deyə bilərik ki, informasiya və kommunikasiya texnologiyaları mütəxəssisinə – texnikə tələb yüksəkdir (12 %). Bu, kompüter şəbəkəsi, informasiya və kommunikasiya texnologiyalarının idarə edilməsi və dəstəyi ilə əlaqədardır.

İnternet reklamı və marketinq ən perspektivli sahələrdən biridir. Bu sahələr məhsul və ya xidmətin tanıdılmasını əhatə edir və satışa dəstək olur. Marketinqlə məşğul olanlar potensial müştərinin istək və ehtiyaclarını əsaslı şəkildə araşdırırlar.

Həmçinin ictimai əlaqələr, yəni PR (public relations) ən çox tələb olunan sahələrdən sayılır. Bu, gənc peşə hesab olunur. Bu peşənin əsas məqsədi insanların fikrinə və davranışına təsir göstərməkdir. Gənclər son illərdə fəal şəkildə bu peşəni seçirlər.

Eləcə də sosial şəbəkələrdə işləmək (ixtisas: sosial media meneceri) də çox perspektivli və gəlirlidir. Bu peşə sizə evdən çıxmadan pul qazanmaq imkanı verir.

Satış meneceri ixtisası biznesin inkişafı üçün çox mühümdür. İşlə təmin edənlər də bizneslərində işlə təmin etmək üçün müvafiq kadrlar axtarırlar. Bu istiqamətdə bilginin dərinləşdirilməsi insanlar üçün çox faydalıdır.

Qeyd edək ki, Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin səhifəsində yayımlanmış Gürcüstanın əmək bazarının analizinə əsasən, 2021-ci ildə ötən illərlə müqayisədə özəl agentlik “HR.GE”nin səhifəsindəki vakansiyaların sayı hiss olunacaq dərəcədə artıb (66 %) və təxminən 70 000 təşkil edib. Vakansiyaya görə, texniklər (23 %) və xidmət sahəsinin nümayəndələri (23 %) aparıcı yeri tuturlar. Onların ardınca mütəxəssislər və ofis işçiləri üçün vakansiyalar gəlir.

Yekun olaraq, seçəcəyimiz hər hansı peşəyə məsuliyyətlə yanaşmalıyıq və işimizi sona qədər həvəs və maraqla yerinə yetirməliyik.

*Mənbə: etaloni.ge*

# 2021-2022-Cİ TƏDRİS İLİNDƏ 8 846 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB



Təhsil müəssisələrinin mandatur xidməti tərəfindən yayımlanmış məlumata əsasən, 2022-ci ildə şagird statusunun dayandırılması ilə bağlı sosial işçilər 254 müraciətə reaksiya göstəriblər.

2021-2022-ci tədris ilində 8 846 şagird təhsilini dayandırıb.

Qeyd edək ki, şagir statusunun dayandırılmasının səbəbi, əksər hallarda, şagirdin xaricdə və ya Gürcüstanın nəzarətində olmayan ərazidə olması, peşə təhsili almaq üçün attestatın götürülməsidir.

“Şagird statusunun dayandırılması istiqamətində 2022-ci il ərzində sosial işçilər Tbilisi və regionlarda 254 müraciətə reaksiya göstəriblər. Araşdırılmış hallardan mütəxəssislərin işləməsi nəticəsində 102 şagird təhsil prosesinə geri qaytarılıb. 70 şagirdlə məktəb mühitinə qaytarılma işləri prosesi aparılır. 65 şagirdin statusu dayandırılıb, buradan 32-nin statusunun dayandırılmasına baxmayaraq, statusun bərpa edilməsi prosesinə dəstək göstərilir. Araşdırılmış 17 halda isə məsələyə başqa müvafiq qurumlar qoşulublar”, – mandatur xidməti tərəfindən yayımlanmış məlumatda qeyd olunub.

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTANDA İSTEHSAL OLUNAN PUA-LAR SINAQDAN KEÇİRİLİB



Yanvarın 27-də Gürcüstan-Polşa müəssisəsi tərəfindən birgə istehsal olunan döyüş və kəşfiyyat təyinatlı PUA-ların sınaq uçuşu uğurla həyata keçirilib.

“FLYEYE” pilotsuz uçuş sistemi ağır meteoroloji və radioelektron döyüş şəraitində bütün iqlim zonalarında tapşırıqları yüksək dəqiqliklə yerinə yetirmək üçün nəzərdə tutulub. Sistem gecə-gündüz real vaxt rejimində gizli müşahidə imkanlarını və məlumatların təhlilini təmin edir.

“WARMATE” sübut edilmiş effektivliyə və yüksək məhvetmə dəqiqliyinə malik döyüş başlıqlı PUA-dır. Müxtəlif növ döyüş başlıqlarına malikdir. Polşa Ordusu, həmçinin digər NATO və qeyri-üzv istifadəçiləri tərəfindən istifadə olunur.

Qeyd edək ki, “Delta-Webe” MMC Gürcüstanda “Delta International” MMC və WB Electronics S.A. tərəfindən təsis edilib. Şirkətlər “Delta”nın 100 faizlik iştirak payı ilə yaradılıb.

Gürcüstan-Polşa müəssisəsinin məqsədi pilotsuz uçuş aparatlarının yığılmasıdır. Müəssisə ildə yüzlərlə dron istehsal edə biləcək. Bu mərhələdə şirkət “WARMATE” və “FLYEYE” tipli pilotsuz uçuş aparatlarının yığılması üçün texniki xidmət prosedurlarını təmin edir.

Baş nazir İrakli Qaribaşvili, müdafiə naziri Cuanşer Burçuladze, daxili işlər naziri Vaxtanq Qomelauri və digər rəsmi şəxslər sınaq uçuşlarını müşahidə ediblər.

# ÖZƏL MƏKTƏBLƏRİN SAYI AZALIB, ŞAGİRDLƏRİN SAYI ÇOXALIB

Gürcüstanın Milli Statistika İdarəsinin yaydığı məlumata əsasən, son üç tədris ilində özəl məktəblərdə şagirdlərin sayı çoxalıb, özəl ümumtəhsil müəssisələrinin sayı isə azalıb.

Məlumatda bildirilir ki, 2020-2021-ci tədris ilində ölkə miqyasında 223 özəl məktəb qeydiyyatdan keçib, şagird sayı isə 59 966 göstərilir.

2021-2022-ci tədris ilində 222 özəl məktəb və 60 063 şagird qeydə alınıb. 2022-2023-cü tədris ilində isə özəl ümumtəhsil müəssisələrinin sayı 216-ya qədər azalıb, şagird sayı isə 63 658-ə qədər artıb.

Qeyd edək ki, bu göstəricilər hər tədris ilinin başlanğıcında hesablanıb.

*Mənbə: etaloni.ge*

# ZEİSTEXO KƏNDİNİN SONUNCU SAKİNİ DÜNYASINI DƏYİŞİB



Gürcüstanın Xevsureti bölgəsində, Zeistexo ucqar dağ kəndinin yeganə və sonuncu sakini Mixail Arabeli yanvarın 16-sı 82 yaşında dünyasını dəyişib. Son 20 ili tək yaşayan M.Arabeli kəndin yeganə sakini idi.

Qeyd edək ki, Zeistexo kəndi dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir.

Zeistexo kəndi ilə qonşu Borisakxo yaşayış məntəqəsi arasında məsafə 25 kilometr, Duşeti turizm bölgəsinə qədər olan məsafə isə 75 kilometrdir.

1926-cı ildə aparılan siyahıyaalmaya görə, kənddə 54 nəfər – 33 qadın və 21 kişi yaşayıb. 2002-ci ildən bəri Mixail Arabeli kəndin yeganə sakin idi.

Yeməyi və digər zəruri əşyaları ona yerli könüllülər gətirirdilər.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.